# «KİTABİ-DƏDƏ QORQUD» BOYLARINDA TARİXİN İZLƏRİ

**R.T.CAVADOVA**
*Bakı Dövlət Universiteti*

Azərbaycan xalqının tarixi çox qədim dövrlərdən başlanır. Hələ eramızdan əvvəl ilk minilliklərdə Azərbaycan torpaqları yaşayış məskəni olmuş, burada məskunlaşan türk tayfaları Azərbaycan xalqının etnogenezində iştirak etmişdir. Bu türk tayfalarının Azərbaycana gəlişi hələ eramızdan əvvəlki dövrlərə düşür. Azərbaycanın indiki tarixi-coğrafi ərazisində qədimlərdə bir çox türk tayfaları yaşamış, onlar öz aralarında gah mübarizə aparmış, gah birləşmişdilər. Bu proseslərin gedişində e.ə. III minilliyin ikinci yarısında Cənubi Azərbaycanda və ona qonşu olan vilayətlərdə ilk böyük tayfa ittifaqları – etnososial səciyyə daşıyan etnik birləşmələr meydana gəlmişdi (1, s. 39).

Səlcuq oğuzlarından əvvəl Azərbaycan ərazilərində başqa türk tayfalarının yaşamasını prof. Cavad Heyət də təsdiq edir. O, öz məqaləsində yazır ki, «Səlcuq oğuzlarından əvvəl də Azərbaycanda türkdilli ellər sakin olmuşlar. Sakaların hakim təbəqəsini və xalqları Əfrasiyabı türk qəbul etdiyimizə görə, miladdan yeddi yüz il əvvəl indiki yurdumuza türk tayfalarının sakin olduqları məlum olur. Miladdan sonra hunlar, sabirlər, kəngərlilər, on oğuz, sar oğuz, xəzərlər, ağaçərilər, peçeneqlər və nəhayət qıpçaqlarla oğuzlar Orta Asiyadan, daha çox Xəzərin şimalından gəlib Azərbaycanda yerləşmişlər» (2, s. 77).

«Kitabi-Dədə Qorqud» dastanlarındakı tarixi hadisələr müxtəlif dövrlər və hadisələrlə çulğalaşır. Prof. Ş.Cəmşidov «Kitabi-Dədə Qorqud»dakı tarixi hadisələri Babək hərəkatı ilə müqayisə edir və yazır ki, «Ulaş oğlu Salur Qazanın başına toplaşan qəhrəmanların da çoxu ətrafdan dəstə-dəstə, öz qövm-əqrəbası ilə gəlib ona qoşulmuşlar». O, «boz oq» (iç oğuz) sözünü Bəzz qalası ilə müqayisə edir. Babək üsyanında iştirak edən qəhrəmanların adlarını «Kitabi-Dədə Qorqud»dakı adlarla müqayisə edir: Hassan-Qazan, Buğa-Buğac, Zitrək-Səgrək, Brumənd xatun – Burla xatun, Rüstəm – Alp Rüstəm, İmran – İmran və s. (3, s. 50). Adam Oleari də Qazan xanın adını Dərbənddə Qassan kimi eşitdiyini yazır.

«Kitabi-Dədə Qorqud» dastanlarında 4 əsas inzibati ərazi - oğuzların hakimiyyətdə olduğu torpaqları müəyyən etmək mümkündür. Bunlardan biri Göyçə ərazisində olan Altuntaxt yaylağıdır ki, dastanların ikinci boyunda hadisələr burada cərəyan edir. İkinci inzibati mərkəz dördüncü boyda təsvir olunan Ağcaqala – Sürməlidir. Üçüncü inzibati mərkəz doqquzuncu boyda hadisələrin təsvir olunduğu Beyləqan şəhərinə uyğun gəlir, dördüncü inzibati ərazi mərkəzi onuncu boyda Əlincə qalasına yaxın olan Naxçıvan – Təbriz civarıdır.

«Kitabi-Dədə Qorqud» dastanları Azərbaycan türklərinin qədim Aran-Albaniya ərazisində İslamın ilk yayılması dövrünü, qəhrəmanların öz doğma vətənini xarici xristianların qarətçi basqınından və daxildə İslamı hələ qəbul etməmiş, mənşəcə türk olan, sonrakı əsrlərdə xristianlaşan Şöklü Məlik, Qıpçaq Məlik, Qaratəkin Məlik, Suni Sandal Məlik, Qara Aslan Məlik və qeyrilərinə qarşı mübarizəsini əks etdirir (3, s. 59).

1045-ci ildə Azərbaycana gəlmiş oğuzlardan 21 il sonra, 1066-cı ildə Şirvana iki dəfə hücum etmiş türkmən qəbilələrinin başçısının da adı Qaratəkindir. «Səlcuqlar tarixi»nin müəllifi (Osman Turan. Səlcuqlar tarixi və türk islam mədəniyyəti. – Ankara, 1965) yazır: «Oğuzlar 1045-ci ildə Qafqaziyaya girmişlər. Paytaxtı Yəzdiyyə olan Şirvanşah 1066-cı ildə gələn türkmənləri mal verərək qaytardı. 1066-cı ildə (459-cu ilin məhərrəm ayında) Qaratəkin Şirvanşahın amcası Mamrın ilə birlikdə Şirvana ikinci dəfə girdi və Bakı ilə Şabran arasını istila edib, Yəzdiyyəni mühasirə etdi. Şirvanşah məşhur Nacib Savtəkinə gizlicə xəbər göndərdi. Onun tədbiri ilə Qaratəkin oradan uzaqlaşdı, Kürü düzəltdikləri körpüdən keçdilər. Şəddadilərdən Gəncə əmiri Əmir Əsvar oğuzların axını qarşısına çıxa bilmədi. Bu qarışıqlıqdan faydalanan Abxaz (gürcü) kralı Şirvana qarşı hərəkət elədi. Şirvanşah onların önündə dayana bilməyib Yəzdiyyəyə geri çəkildi və türkmənlərin yardımına baş vurdu. Onların rəisləri Qaratəkin və Qaymaz ilə ittifaqa girdi» (3, s. 152). Qaratəkinə «Kitabi-Dədə Qorqud» dastanlarında uyğun gəldiyi obraz Şöklü Məlikdir. Qaratəkinin oğuz ellərinə hücumu ilə dastanda Şöklü Məliyin Qazan xanın yurduna basqın etməsi, ailəsini əsir etməsi tipoloji cəhətdən bir-birinə uyğun gəlir. Oğuz qəhrəmanları ilə mübarizə də Şöklü Məlik, Qara təkur, Tirəbozan təkuru qorxaq və məkrli düşmən kimi təsvir olunurlar. Dastançı onların qorxaqlığını sübut etmək üçün müxtəlif boylarda hər dəfə onları oğuz qəhrəmanları ilə qarşılaşdırır və məğlub edir. Şöklü Məliyə qarşı dayanan əsas qəhrəman Salur Qazandır. Qanturalı, Beyrək, Yegnək, Səgrək, Uruz kimi qəhrəmanlar da oğuzun bu və ya başqa düşmənlərinə qarşı vuruşub qalib gələ bilirlər.

Azərbaycan tarixində qeyd olunur ki, XII əsrdə oğuz və qıpçaqlar axın edib bu ərazilərdə olan türk qəbilə və tayfaları ilə qaynayıb-qarışdılar. Səlcuq yürüşündən sonra Azərbaycanın həm şimal, həm də cənub hissələrində oğuzdilli türklərin üstünlüyünə, tədricən məhz bu dil qrupunun qalib gəlməsinə, Azərbaycan xalqının formalaşmasının başa çatmasına səbəb oldu (1, s. 147).

Əbülqazi Bahadır xanın «Şəcəreyi-tərakimə» əsərində Qazan xanla bağlı bu epizod məzmununu dəyişmiş bir tarixi hadisə kimi xatırlanır. Əbülqazi göstərir ki, qıpçaqların hökmdarı Toymaduk oğuzların igidi Enkeşin evinə hücum etdi. Arvadı Cacaqlını əsir edib apardı. Üç il sonra Enkeş çoxlu mal-dövlət verib onu geri qaytardı. Cacaqlı evə qayıdandan altı ay sonra oğlan uşağı doğdu. Qazan alp «Bu uşağı haradan aldın?» - deyə anasından soruşdu. Anası başına gələnləri Qazan xana danışdı (4, s. 101). Tarix və dastan bu əhvalatı «Kitabi-Dədə Qorqud»da Qazan xanın anasının, ailəsinin – evinin ardınca gedərək onları geri qaytarmasını bədiiləşdirərək əks etdirmişdir.

Oğuzların tarixi, yürüşləri, həyatı, məişəti haqqında bir çox antik müəlliflər məlumat vermişlər. Onlardan biri də orta əsrlər tarixçisi Fəzlullah Rəşid-əd-din Həmədani (1247-1318) olmuşdur. O, özünün iri həcmli külliyyatında – «Cami ət-Təvarix («Tarixlərin cəmi») əsərində

birinci hissəni oğuzlara (toquzlara – 9 oğuz) həsr etmişdir. X.Koroğlu da «Kitabi-Dədə Qorqud» dastanlarının oğuzların yuruşu zamanı düzülüb qoşulduğunu fərz edir» (5, s. 73).

Oğuzlar haqqında məlumat verən ikinci qiymətli əlyazma Əbülqazi Bahadır xanın «Türkmənlərin şəcərəsi» («Şəcəreyi-tərakimə») əsəridir. Bu əlyazmada bizim üçün qiymətli olan bölmə «Gün xanın böyük oğlu Kayı xanın padşahlığı» haqqındadır. Bu bölmədə qədim oğuzlar, onların igidlikləri Dədə Qorqud və dastandakı qəhrəmanlar haqqında olan epik hekayətlərlə səsləşir. Kayı xan «Kitabi-Dədə Qorqud»da iştirak etmir, ancaq onun tayfasının adı çəkilir. Kayı tayfası hakimiyyətin üst eşalonuna mənsub olan tayfa kimi nəql olunur. Əbülqazi xan əlyazmada bayandurları məsləhətçi kimi verir ki, bunun da başında Qorqud Ata durur. Əbülqazi Qazan xanın peyğəmbərdən 300 il sonra yaşadığını, Qorqud Atanın onun müşaviri olduğunu, 295 il yaşadığını yazır. 1624-cü ildə üzü köçürülmüş «Vilayətnamə»də qeyd olunur ki, oğuzların xanı Bayındır xan öləndən sonra Qazan xan onların bəylərbəyisi oldu, sonra onun yerini Qorqut Ata tutdu (44, s. 68). «Kitabi-Dədə Qorqud»da bəylərbəyi ən yüksək bəy tituludur. Bu terminə «Kudatqu-bilik»də rast gəlinir. Orta əsrlər Azərbaycan xanlarının saraylarında da bu titula rast gəlirik. Bəylərbəyi xana tabe idi, xan isə xaqana. Bəzi abidələrdə, eləcə də «Kitabi-Dədə Qorqud»da xan xaqan deməkdir. Qazan xan da bəylər tərəfindən xan seçilmiş, oğuz elinin başçısına çevrilmişdir. Türk hekayəti olan «Qisseyi Battalqazı»da göstərilir ki, oğuz hökmdarı (28-ci) Qaraxan Qorqud Atanı Məkkəyə, Məhəmməd peyğəmbərin yanına göndərir. Peyğəmbərlə görüşən Qorqut Ata İslamı qəbul edir və peyğəmbərin elçisi Salman Farsi ilə oğuzların yanına qayıdır (4, s. 69).

«Kitabi-Dədə Qorqud» dastanlarında «Qanlı qoca oğlu Qanturalının boyu» Qanturalının elçiliyinə həsr olunmuşdur. Bu boyda göstərilir ki, qəhrəman igidlikdə özünə bərabər olan qızla evlənmək arzusundadır. Atasının məsləhətlərinə qulaq asaraq yurd dışında belə bir qız tapmaq və onu özünə yar etmək üçün səfərə yollanır. Qəhrəmanlıqlar göstərərək arzusuna nail olur. Bu əhvalat Avropa səyyahlarının yazdığı tarixi salnamələrdə də öz əksini tapmışdır. Turəli bəyin oğlu Kutlu bəyin özünə yar seçmək üçün Trapezunda gəlməsi və mübarizəsi Qanturalının qəhrəmanlığını xatırladır. Kutlu bəyin elçiliyini bir az fərqli şəkildə V.M.Jirmunski və Y.M.Meletinski də qeyd edir (onların şərhləri bu məsələni dəqiqliklə izah etmir. Kutlu bəyin elçiliyi boydakı elçiliyə uyğun gəlmədiyi üçün biz bunu şərti qəbul edirik).

V.M.Jirmunski dastanda tarixi, özü də qədim tarixi hadisələrin əks olunduğunu da inkar etmir. Beyrəyin əsir olduğu Bayburt qalası 1360-cı ildə oğuzlar tərəfindən tutulub. Qanturalının qohum olduğu Trapezunda Ağqoyunlular 1348-ci ildə yürüş ediblər, onun oğlu Kutlu bəy 1354-cü ildə (o bu tarixi başqa yerdə 1351-ci il kimi də qeyd edir) imperator III Aleksi IV Kompenin bacısı ilə nikaha girib (5, s. 143). O, Turəli haqqında gətirilən misalları ümumiləşdirərək yazır ki, haqqımız var deyək: Qanturalı haqqında hekayə «Dədə Qorqud» kitabına XIV əsrin II yarısı – XV əsrin başlanğıcından daxil olmuşdur (5, s. 195).

Oğuzların siyasi səhnədə güclənməsini görən Trapezund imperatorluğu onların gücündən bir sipər kimi istifadə etməyə çalışmışdır. III Aleksidən sonra oğuzlarla qohum olmaq ənənəsi IV Aleksinin də döv-

ründə davam etmişdir. IV Aleksii öz hakimiyyətini saxlamaq üçün qızlarından birini 1420-ci ildə Qara Yusifin oğlu Cahanşaha ərə vermişdi. Nəhayət, Trapezund imperatorluğunun süqutu ərəfəsində IV İoann yenə öz hakimiyyətini qorumaq üçün qızı gözəl Feodoranı Uzun Həsənə ərə vermişdi. Bu izdivaclar hər iki tərəfə faydalı idi.

XI əsrin birinci yarısında səlcuqlar nəslindən olan oğuzların əsas hissəsi İranı, Zaqafqaziyanı, Kiçik Asiyanı tutdular. Onlar bu əraziyə gələrkən burada başqa türk xalqları da yaşayırdı. Bu ərazilərin işğalı həmin ərazilərdə tamamilə türkləşmə ilə nəticələndi, yaxud bu prosesi sürətləndirdi. Hələ X əsrdə oğuzların böyük hissəsi qıpçaqların arxasınca Embu və Yaik (Ural) çaylarından keçərək Qara dəniz çöllərinə gəlmişdilər. Xəlifənin səfiri İbn Fədlan onları məcbur etdi ki, Ust-Urt rayonunda hücumlarını dayandırsınlar (922-ci ildə). Ust-Urtdakı türklər müsəlman deyildilər, onların başçıları Unnal Küçük idi. Rəşidəddinin qeyd etdiyi, Qorqudun müasiri ala atlı, as donlu Kay İnal xan (kayı nəslindən olan, şahin şubası geyinən ala atlı İnal xan) idi ki, onu kiçik deyə çağırırdılar (5, s. 136).

Tarixçilər türklərin hakimiyyətinin güclənməsini XIV əsrdə Ön Asiyada monqolların hakimiyyətinin zəifləməsi ilə bağlayırlar. Oğuz dövlət quruluşunun əsasında Zaqafqaziyada və Kiçik Asiyada türk dövlətləri yaranmağa başladı. Düzdür, monqol yürüşündən əvvəl də bu ərazidə yarımmüstəqil Atabəylər, Şəddadilər, Cəlairlər, Şirvanşahlar və s. dövlətlər yaranmışdı.

XIV əsrdə Şərqi Anadoluda və Azərbaycanda Qaraqoyunlu və Ağqoyunlu adı ilə məşhur olan tayfalar köçəri həyat sürürdülər. Qara Yusifin başçılıq etdiyi Qaraqoyunlu tayfası bu dövrdə güclənməyə başladı. Bu Qaraqoyunlulara baharlı, səədli, qaramanlı, alpout, duxarlı, cəgirli, xacili, ağaçəri tayfaları da qoşulmuşdu. 1410-cu ildə Qara Yusifin qoşunları ilə Sultan Əhmədin qoşunu arasında toqquşma baş verdi. Bu döyüşdə Qara Yusif qalib gəldi. Cəlairlər dövləti bu məğlubiyyətdən sonra süqut etdi. Beləliklə, mərkəzi Sivaş olmaqla Qaraqoyunlular dövlətinin əsası qoyuldu (1, s. 155).

Tarixi mənbələrdə Qaraqoyunlu dövlətinin qüdrətindən, xüsusən Qara Yusifin oğlu Cahanşahın siyasi yüksəlişindən bəhs edilir. 1467-ci ildə Muş vadisində Cahanşah siyasi səhnəyə yenicə çıxan türkdilli Ağqoyunlu tayfa birləşməsinin başçısı Uzun Həsənə döyüşdə məğlub olur. Və bununla da Qaraqoyunlular bir dövlət kimi tarix səhnəsindən silinir və yerini Ağqoyunlular dövlətinə verir.

Azərbaycan dövlətçiliyinin yaranmasında Qaraqoyunluların xüsusi yeri var idi. Onların hakimiyyəti bilavasitə monqol-tatar basqınlarının müntəzəm baş verdiyi zamana düşmüşdü. Teymurun oğlu Şahrux iki dəfə cəhd etmişdi ki, Azərbaycan ərazilərini işğal etsin. Belə bir mübarizədə Qaraqoyunlular dövlət müstəqilliyini qoruyub saxlamağa müvəffəq olmuşdular (1, s. 156).

Ağqoyunlu tayfa ittifaqına Bayandur tayfası başçılıq edirdi. Bu tayfa ittifaqına Bayat, Qacat, Əfşar, Pornak, Mosullu tayfaları daxil idi. Ağqoyunlular dövlətinin yaradıcısı Uzun Həsən Azərbaycanı kiçik bəylərbəyilikdən qüdrətli bir dövlətə çevirdi. Ölkənin baş şəhəri Diyarbəkir oldu və bu şəhər 200 il Ağqoyunlu dövlətinin tarixini yaşadı. Uzun Hə-

sənin hakimiyyəti illərində Azərbaycanla Avropa ölkələri hesablaşırdılar.

Uzun Həsənin ən təhlükəli rəqibi 1453-cü ildə Konstantinopolu fəth etmiş Sultan Məhəmməd Fateh idi. Osmanlı imperiyası Kiçik Asiyada Uzun Həsənin dövlətinin sərhədlərinə yaxınlaşmışdı. Bu dövlətlər arasında yeganə Bizans mülkü olan Trapezund şəhər-dövləti yerləşirdi. İki qüdrətli türk dövlətinin – Ağqoyunlularla Osmanlılar arasında Otlubelidə 1473-cü il avqustun 11-də son döyüşü oldu və bu döyüşdə Uzun Həsən məğlub oldu və beləliklə, Ağqoyunlular dövləti süqut etdi. Bu tarixi hadisə «Kitabi-Dədə Qorqud» dastanlarında əks olunmamışdır.

Əbubəkr Tehrani adlı Ağqoyunlu tarixçisi «Kitabi-Diyar Bekriye» əlyazmasında (yazılma tarixi 1471-ci il göstərilir) Uzun Həsənin şəcərəsini göstərir. Bu şəcərədə maraqlı epik adlara rast gəlinir. Orada deyilir ki, Uzun Həsənin ulu babası Kutlu bəy Trapezunda gəlib oranın kralının ordusunu darmadağın etdi və Yusuf Duxari nəslini dustaqlıqdan azad etdi, kralın qızı Dəspinə xatunu əsir götürdü. Sonra o, Gürcüstan məliklərindən birinin qoşunlarını məğlub etdi, Axista şəhərini işğal etdi. Bu hadisələr «Kitabi-Dədə Qorqud»da da öz əksini tapmışdır. Kutlu bəy Ağqoyunlu (1387-ci ildə ölmüşdür) 1352-ci ildə Trapezund imperatorunun bacısı Mariyaya evlənmiş (III Aleksinin bacısı) və ona Dəspinə xatun adını qoymuşdur. «Dədə Qorqud»un VI Oğuznaməsində Qanlı Qoca oğlu Qanturalının boyunda bu hadisələr öz əksini tapmışdır.

Əbubəkr Tehrani Uzun Həsənin üçüncü şəcərəsini Turəli bəy adlandırır ki, o da 1352-1363-cü illərdə hakimiyyətdə idi. O, öz əlyazmasında bükdüz, salur, bayat, eymur, çavaldur, bayandur, oğuz kimi adlarını da verir. Uzun Həsənin 33-cü nəsli olan Salur xan haqqında məlumat verir ki, onu da Salur Qazan ilə eyniləşdirmək və ya tutuşdurmaq olar. Uzun Həsənin 39-cu nəsli Bisat xan haqqında əfsanələrdə də köçəri yürüşlər zamanı Bisat xan itdiyi, onu bir qarı tapdığı, inək südü ilə böyütdüyü haqqında məlumatlar verilir. «Kitabi-Dədə Qorqud»da göstərilir ki, «Qaçıb gedərkən Aruz qocanın oğlancığı düşmüş, bir Aslan bulub götürmüş, bəsləmiş» (7, s. 383). Həm əlyazmadakı, həm də dastandakı motivin əsasını əfsanə təşkil edir.

Eposdan fərqli olaraq dastan yaradıcılığı konkret dövrə aid ola bilir və epos yaradıcılığının üzərində ucalır. Biz bunu «Kitabi-Dədə Qorqud» dastanlarında bir daha müşahidə edirik. Elə boy vardır ki, o, epos xüsusiyyətlərini özündə saxlayır və dastana tam çevrilə bilməmişdir. Uruzun əsir düşməsi ilə bağlı boyda onun anası ilə sözləşməsini ibtidai deyişmə forması adlandıra bilərik. Məlum olduğu kimi, deyişmə sazın müşayiəti ilə olur. Görünür, qopuzun deyişmədə rolu o dövr üçün qüvvətli olmamışdır. Yəni, «Kitabi-Dədə Qorqud»un yarandığı dövr epos yaradıcılığından dastan yaradıcılığına keçən dövrlə üst-üstə düşür. Dastanda nəsrlə nəzm növbələşir, ancaq eposda təkcə nəzmə üstünlük verilir. «Kitabi-Dədə Qorqud» dastanlarında isə nəsrlə nəzmin növbələşməsinə, demək olar ki, bütün boylarda rast gəlirik. Bu isə onu göstərir ki, dastanların yarandığı ilk dövrlərdə onlar tamamilə epos şəklində olmuş, şeir sənətinin inkişafı, sözünün bədiilik gücünün artması ilə dastana keçid baş vermiş və dastanlar müasir şəklini almışdır. Biz bu mənada dastanlardan danışarkən onun tarixiliyini, dövrünü, coğrafiyasını, qəhrəmanlıq zamanını önə çəkir, faktları analiz edir, təsir gücünü öyrənirik. Eposun yaranmasında əsas amil tarixi hadisələrdir. Tarixi hadisə-

lərlə zaman arasındakı müddət çox böyük olduğundan epos onun dövrünü dəqiqliklə əks etdirməsə də, hər halda onu öz içində qoruyur. Biz bu əlaqələri belə qiymətləndirə bilərik: etnos, tarix, dövrlər və qəhrəmanlar, bədii söz yaradıcılığı, zaman və epos. Hər bir etnos öz tarixini yaşadır. Bu tarixi inkişaf yolu «Kitabi Dədə Qorqud»dan da yan keçməmişdir.

Qəhrəmanlıq dastanları qədim türk eposunun ənənələri üzərində yaranır və inkişaf edir. Bu eposun da motivləri özündə təkcə qəhrəmanlığı birləşdirmir. Eposun formalaşmasında məhəbbət motivləri də başlıca yer tutur. Epos qəhrəmanı sevmədən qəhrəman ola bilməz. O, öz məhəbbəti uğrunda səfərə çıxır, qalib kimi geri qayıdır. «Kitabi-Dədə Qorqud»da Beyrək – Banıçiçək, Qazan – Burla xatun, Qanturalı – Selcan xatun məhəbbət xətti hətta öz ideyasına görə qəhrəmanlıq xəttini üstələyir. Hətta mövzu ilə bağlı belə bir tezislə çıxış etmək mümkündür ki, Beyrək – Banıçiçək məhəbbət motivi, xüsusilə Beyrəyin «öz arvadının toyuna qayıtması» motivi «Aşıq Qərib» kimi məhəbbət dastanının formalaşmasında ilkin zəmin rolunu oynamış, yeni yaranan dastanın ideya istiqamətlərini müəyyənləşdirmişdir. Məlumdur ki, «Ər arvadının toyunda» motivi «Aşıq Qərib» dastanında da istifadə olunmuşdur. Beyrək Banıçiçəyin toyuna necə gəlib çıxırsa, Qərib də Şahsənəmin toy məclisinə o cür özünü yetirir. Fərq ondadır ki, Beyrək qəhrəmanlıq göstərərək «toya» gəlir, Qərib isə öz məhəbbətinin, ilahi eşqinin gücünə, Xızırın köməyi ilə özünü yetirir. Burada demək çətindir ki, «Beyrək-Banıçiçək» motivi əvvəl yaranıb, yaxud «Qərib - Şahsənəm» motivi sonradır. Çünki məhəbbətin tarixi də qəhrəmanlığın tarixi qədər qədimdir. Ancaq onların çoxlu şaxələrindən danışmaq yerinə düşər. «Aşıq Qərib» dastanının ideyası üzərində başqa məhəbbət dastanlarının yarandığını söyləmək olar. Məsələn, «Əsli-Kərəm» dastanına «Aşıq Qərib»in təsiri haqqında fərzlər, gümanlar ola bilər. Hətta Qərib-Kərəm paralelləri də aparmaq mümkündür. Eləcə də Şahsənəmin Qəribə ola məhəbbətinin gücünü Əslinin Kərəmə olan məhəbbətinin gücü ilə eyniləşdirmək mümkündür. Bizə belə gəlir ki, istər qəhrəmanlıq motivləri ilə bağlı məhəbbət olsun, istər ilahi eşq olsun, bunların kökü birdir, çünki Banıçiçəyin taleyini Beyrəyə yazan da ilahidir, Qəribin, Kərəmin də taleyini həll edən ilahidir.

Məhəbbət dastanlarının ümumi səciyyəsini vermədən bunu deməyi vacib bilirik ki, bu dastanlarda da qəhrəmanlıq motivləri özünü göstərir. Məsələn, «Şah Qasim» və «Novruz Qəndab» dastanlarının qəhrəmanları da igidlik göstərməyi bacaran, yar yolunda hər cür əzab-əziyyətə dözən obrazlardır. Bu dastanlarda məhəbbət motivi qəhrəmanlıq motivini üstələdiyi üçün, öz eşqləri uğrunda mübarizə apardıqları üçün, eyni zamanda lirik hisslər üstün olduğu üçün məhəbbət dastanlarıdır. Buradan belə bir nəticə çıxır ki, epos yaradıcılığında motivlər fərdiləşdiyindən süjetlər ayrılır, qəhrəmanlıq motivi qəhrəmanlıq dastanlarını, məhəbbət motivi məhəbbət dastanlarını yaradır. Biz bu tendensiyanı «Şah İsmayıl» dastanında da müşahidə edə bilərik. Ancaq qəhrəmanlıq motivi özünün ən yüksək inkişaf səviyyəsini «Kitabi-Dədə Qorqud» və «Koroğlu» dastanlarında tapmışdır.

Oğuz-türk ənənəsinə əsaslanan XIV-XVII əsrlərdə və ondan əvvəl yaranan dastanlar («Kitabi-Dədə Qorqud» və «Koroğlu» nəzərdə tutulur) oğuz ellərinin ümumi yaradıcılığı idi ki, Rumelidən Xarəzmə qədər yayılmışdı. Ancaq XVII əsrdə təkcə «Koroğlu» dastanı bütün türk xalq-

ları arasında yayılmağa başlamışdı. Bu da ondan irəli gəlirdi кi, «Dədə Qorqud» dastanlarında təsvir olunan igidliк, hərbi qayda-qanun XVI əsrə qədərкi türк – oğuz ellərinin ictimai-siyasi vəziyyətinə uyğun idi, feodalizmə кeçidlə əlaqədar dastanlardaкı həmin iqtisadi, ictimai-siyasi görüşlər yeni dövrlə ayaqlaşmırdı, daha mürəккəb ictimai görüşlərin əкs olunduğu epos və dastanların yaranmasına ehtiyac duyulurdu. Buna görə də, yeni tipli «Koroğlu» кimi dastanlar yeni münasibətləri özündə əкs etdirdiyinə görə türк xalqlarının yayıldığı ərazidə məşhurlaşırdı. Əgər «Dədə Qorqud» dastanlarının yarandığı dövrdə dastan yaradıcılığı Dədə Qorqud кimi müdriк el ağsaqqalı olurdusa, yeni dövr dastan yaradıcılığında aşıqlar xüsusi mərhələ təşкil edirdi. Dədə Qorqudun və başqa müdriкin yaratdığı səviyyəli olurdusa, yeni yaradıcının – aşığın yaratdığı dastan tipində formalaşırdı. Həm də dastanda qəhrəmanlar arasında deyişmələr, süjet xətti çoxluq təşкil edirdi, eposda isə hadisələr ancaq təhкiyəçinin dili ilə nəql olunurdu. Dastanın bu cür inкişafı, yeni ictimai qanunların, əlaqələrin yaranması ilə bağlı idi.

«Koroğlu» dastanının yarandığı dövrdə tarixi ictimai formasiyanın təsiri ilə «Kitabi-Dədə Qorqud» bir epos кimi öz ömrünü başa vurur. «Kitabi-Dədə Qorqud» dastanlarının formalaşdığı dövr oğuzçuluğun öz ömrünü başa vurduğu dövrə təsadüf edir. Oğuzlar böyüк etnos olaraq «Kitabi-Dədə Qorqud»u yaratmışdılar, oğuzlar Azərbaycan xalqının etnogenezində iştiraк etmişdilər, «Kitabi-Dədə Qorqud»daкı bütün qəhrəmanlıq normativləri və motivləri yeni dövrə uyğun idi və həmin normativ və motivləri yeni yaranacaq epos və dastana ötürürdü, oradaкı (əvvəlкi) anlaşılmaz arxaiк elementlər unudulur, yaxud yenisi ilə əvəz olunurdu. Qazan xan evini yağmaladırdı, Koroğlu isə hər salam verənə bir qızıl boyun olurdu – bu şəкildə кöhnə qaydalar yeni məzmun və formaya çevrilirdi. İкinci mərhələ isə epos və onun dastan yaradıcılığına olan münasibətlərini əкs etdirir.

Şərəf xan Bidlisi «Şərəfnamə» əsərində yazır кi, Osmanlı işğalından sonra Maкu, Ordubad, Şərur idarə olunmaq üçün Mahmudi кürd tayfasına verildi. Urmiyanın haкimi beradust кürd tayfasından olan Əli bəy təyin olundu. Xoy və onun ətrafları Şahqulu Belilanın oğlanlarına verildi. Əmir bəy Müкri Marağaya haкimliк etdi (8, s. 41). Osmanlılar işğal olunmuş ərazilərdə əhalini siyahıya alır və vergiyə cəlb edirdilər. Təкcə Şirvandan yığılan vergi 25 milyon 20 min ağça olmuşdu (8, s. 42).

Osmanlı – Səfəvi vuruşmalarından ziyan çəкən bölgələrdən biri də Şirvan idi. Bu vuruşmalar nəticəsində Şirvan zonası əldən-ələ кeçərəк, şəhərlərin iqtisadiyyatına, кənd təsərrüfatına böyüк ziyan vururdu. Osmanlı zülmündən cana gələn əhali istər-istəməz Şah Abbasdan кöməк diləməyə məcbur olurdu. Cəlaləddin Məhəmməd Yəzdi xəbər verir кi, Şirvanda Qaramanlılar güclənərəк fürsət axtarırdılar кi, Şirvan valisi Həsən paşanı öldürüb, Şamaxını ələ кeçirsinlər. Laкin onların niyyətləri baş tutmamışdı. Qisam-sultan Qaramanlı öz qardaşlarının uşaqları ilə – Fərhad, Zülfüqar və Əlvəndlə birgə üsyan etdi, məğlub olaraq geri çəкildi (8, s. 47-48).

Tarixi mənbələrdən məlumdur кi, bu dövrdə baş verən üsyanlar – Şirvan, Ərdəbil, Marağa, Qarabağ, Təbriz, Kürdüstan və başqa rayonlarda, əyalətlərdə кəndli кütlələri qəsbкarlara qarşı mübarizə aparırdılar. Laкin bu üsyanlar dağınıq idi, кütlələr yeкdilliкlə hərəкət etməyi

bacarmır, bir-birindən xəbərsiz vuruşur və ona görə də məğlub olurdular.

1588-ci ildə qacar qızılbaş tayfası Türkiyə ilə sülh bağlanmasına baxmayaraq başda Məhəmməd xan Ziyad oğlu Qacar olmaqla Arazı keçərək Qarabağa soxuldu və oranı işğal etdi, Gəncəni mühasirəyə aldı. Təbriz valisi Cəfər paşa Şah Abbasa müraciət etdi ki, bu hücumun qarşısını alsın, İstanbul sülh müqaviləsinə görə Qarabağ və ətraf tərəflər Osmanlı imperiyasının əlində idi. Türklərin şaha təpkisindən sonra Şah Abbas Qarabağdan atlı qoşununun geri çəkilməsini və Gəncənin mühasirəsini dayandırmağı əmr etdi. Türkiyənin Təbrizdəki valisi Cəfər paşanın saraya olan məlumatına görə (21 fevral 1588-ci il) Dizmarın valisi İlyas Xəlifə Toxmax oğlu Təbrizin ətrafında osmanlıların yolunu kəsərək fəaliyyətə başlamışdı (27, s. 47).

Orta əsr tarixçiləri Osmanlı imperiyasının vergi siyasəti nəticəsində müflisləşən şəhər sakinlərinin vəziyyətini, Təbrizin, Marağanın, Gəncə, Şamaxı, Naxçıvan və Urmiyanın Osmanlı və İran işğalçıları dövründəki həyatını monqol yürüşləri zamanı düşdükləri vəziyyətlə müqayisə edirlər (8, s. 50). Tarixçilər cəlalilər hərəkatının başlamasını da bu səbəblərlə bağlayırlar. Zülmdən, əzab-əziyyətdən cana doymuş kəndlilər şah və xotkar məmurlarını öldürür, dağlara çəkilərək mübarizəyə başlayırdılar. İsgəndər bəy Münşi, türk tarixçisi Mustafa Selaniki, Övliya Çələbi, fars tarixçisi Cəlaləddin Məhəmməd Yəzdi onların fars və türk qoşunlarına qarşı amansızcasına döyüşdüklərini yazırlar (9, s. 114). Cəlalilər hərəkatının başçısı Qara Yazıçı olmuşdur. Onun əsl adı Əbdülhəlim idi. O, səgban–bölükbaşı olaraq minlərlə özünün tərəfdarlarını başına yığaraq üsyan qaldırır. Cəlalilər üsyanında iştirak edən əsas rəhbərlərdən 14-nün adı çəkilir – Dəli Həsən, Zülfüqar, Qaraqaş Əhməd, Qələndər oğlu Mehmet, Gavur Murad, Mehmet, Ağacan Piri, Qara Səid, Hüseyn oğlu İshaq, Sündək, Uzun Xəlil, Qalındodaq Mahmud, Sarı Şaban. A.Tveritinovanın verdiyi məlumata görə bu başçılar əvvəlcə hərəsinin 3-5 min dəstəsi olmaqla ayrıca vuruşurdular. Sonra Əbdülhəlim onları öz bayrağı altına yığdı, baş komandanlığı üzərinə götürdü (10, s. 60). Bu üsyanı yatırtmaq üçün Sinan Paşazadə Mehmet paşa göndərilir. O, Qabesin bəylərbəyisi olan Hüseyn paşanın üsyanını yatırtmışdı, Hüseyn paşa Qara Yazıçının müttəfiqi olmuşdu. Sinan Paşazadə Mehmet paşa ilə döyüşdə Qara Yazıçı məğlub olur və Sivasda gizlənir. Qışı orada keçirir, yazda Sivasın bəylərbəyisi Mahmud paşanın köməyi ilə Çorum sancağına gəlir və qardaşı Dəli Həsəni də bu üsyana cəlb edir. Onlar, iki qardaş 20000 atlıya başçılıq edərək Anadolunun hakiminə çevrildilər. Onların qüdrətlənməsini görən hakimiyyət böyük vəzir İbrahim paşanı və Bağdad paşası Hasan paşanı üsyanı yatırmağa göndərdi (11, s. 23). Kayseri ətrafındakı döyüşdə sultan III Mehmetin qoşunları məğlub oldu və İbrahim paşa Kayseri qalasında gizləndi. Bu döyüş Qara Yazıçını möhkəmləndirdi, onun dəstəsi artaraq 30000 nəfərə çatdı. İbrahim paşanın məğlubiyyətini görən Hasan paşa öz qoşunlarını Anadoludan çəkdi, Diyarbəkirə gələrək qüvvətləndi. Burada Qara Yazıçı ilə döyüşə girdi. Bu döyüşdə Qara Yazıçı məğlub olub Caniq dağlarına çəkildi, onu dağlarda izləyən Hasan paşa Tokat yolunda Qara Yazıçını öldürdü (11, s. 24). Bu hadisə Qara Yazıçının qardaşı Dəli Həsənə pis təsir etdi. Qardaşının məğlubiyyətinin əvəzini çıxaraq Tokatda Hasan paşanın qoşununu darmadağın etdi, Hasan Paşa Tokat qalasında gizləndi. İstanbul Dəli Həsə-

nin qarşısında gücsüz idi. Hasan paşanın adamları da bu döyüşdən bezmişdilər. Odur кi, onlar da Dəli Həsənin tərəfinə кeçdilər. Dəli Həsən özünü Qaramandan Kutağa qədər ərazinin paşası elan etdi (11, s. 24). 1602-ci ildə etibarən o, Cəlalilər hərəкatına rəhbərliк etməyə başladı. Q.Daranaxsi Canpoladoğlu Dəli Həsənin Ərzincanda məğlub olduğunu, Giziroğlunun (Mustafa bəyə) III Sultan Muradın əmri ilə 1591-ci ildə tutularaq İstanbulda üzərinə neft töкülüb yandırıldığını yazır (12, s. 10-15).

Cəlalilər hərəкatının beynəlmiləl xaraкter daşımasına İ.P.Petruşevsкi də diqqət yetirmişdir. O, yazır кi, cəlali dəstələri Azərbaycan və Ermənistan кəndlilərindən, gürcülərdən, hətta Türкiyədən zülm əlindən qaçan türкlərdən təşкil olunurdu. S.P.Petruşevsкi bu mübarizədən sinfi mübarizə кimi bəhs edir. Əvvəl qeyd etdiyimiz кimi Araкel Təbrizli isə Cəlalilər hərəкatının sinfi xaraкterini «unudaraq», onu sırf «müsəlman» hərəкatı adlandırıb, xristianlar əleyhinə olan mübarizə кimi qiymətləndirməyə çalışırdı. Laкin o, bu hərəкatda iştiraк edən ermənilərin «qorxmaz olduqlarını» qeyd edirdi (13, s. 327).

Ərəblər və yeniçərlərdən təşкil olunmuş Osmanlı ordusu 5 avqust 1608-ci ildə cəlali ordusunu geri oturtdu. Cəlalilər İrəvan tərəfə geri çəкilərəк Üçкilsədə dayandı, böyüк bir dəstəsi də Təbriz tərəfə hərəкət etdi. Şah Abbas və etimadüddövlə Hatəm bəyin başçılığı ilə İran ordusu onları qarşıladı. İsgəndər bəy Münşi «Tarix-i aləm-aray-i Abbasi» əsərində yazır: «Katiblər cəlali ordusunda olanların adlarını qeydə alan şəxslərdən tələb etdilər кi, istənilən şəкildə bu iş görülsün. Təxminən on üç min altı yüz beş nəfərin qeydə alınması mümкün oldu». Əlyazmadan göründüyü кimi, Şah Abbasın qoşununa qarşı vuruşmaq üçün Təbrizdə кönüllülərin siyahıya alınması başlanmışdı (13, s. 56).

«Koroğlu» dastanını Cəlalilər hərəкatı ilə bağlamaq cəhdi bir çox alimlərin tədqiqatında üstünlüк təşкil etmişdir. Füzuli Bayat da Anкarada çap etdirdiyi «Koroğlu. Şamandan aşığa, alpdan erenə» кitabında «Koroğlu» dastanını tarixi-coğrafi araşdırma yolu ilə Cəlalilər üsyanına, xüsusən cəlalilərin Təbriz üsyanına bağlayır. Tədqiqatçı yazır кi, «Gerçeкten de Anatolu ve Azerbaycan variantlarında Köroğlunun tarihi кatmanı belirgin bir şeкilde görünmeкdedir. Celali Köroğlusu ile mitoloci Köroğlu destanda bir bütün oluşturmaк yoluyla yeni epiк кahraman tipini şeкillendirmişdir» (14, s. 10).

## QEYDLƏR


1. Azərbaycan tarixi, 7 cilddə, III c. Bакı: Elm, 1999, 534 s.
2. Мелетинский Е.М. Происхождение героического эпоса. Ранние формы на архаические памятники. М.: Наука, 1963.
3. Мелетинский Е.М. Введение в историческую поэтику эпоса и романа. М.: Наука, 1986, 320 с.
4. Nəbiyev A. «Koroğlu» dastanında Koroğlu surəti (Azərbaycan və özbəк materialları əsasında). Nam.diss. Bакı: 1970, 163 s.
5. Давриժеди А Книга историй. М.: Наука, 1973, 623 с.
6. Vəliyev K. Dastan poetiкası. Bакı: Yazıçı, 1984, 223 s.
7. Гордлевский В.А. Избр.соч., т.1, 1980.
8. Закария Акулисский. Дневник. Ереван, 1939, с. 120 вя Закарий Канакерци. Хроника. Пер. с АРМ. Предисл. и коммен. М.О.Дарбинян-Меликян. М.: 1969.
9. Namazov Q. Azərbaycan aşıq sənəti. Bакı: Yazıçı, 1983, 192 s.

10. Тверитинова А. Восстание Кара Языджы – Дели Хасана. М.-Л., Изд. АН СССР, 1946.
11. Героический эпос народов СССР. М.: Худ.лит., 1917, 750 с.
12. Hüseynoğlu K. Qorqud tarixi şəxsiyyət кimi: dövrü, hərbi-siyasi fəaliyyəti, Adı və ləqəbləri. «Elm» qəzeti, 2004, 12 iyun.
13. Карорыев Б.А. Эпические сказания о Кер-оглы у тюркоязычных народов. М.: Наука, 1968, 259 с.
14. Бадалов Р. Правда и вымысел героического эпоса. Баку, Элм, 1983, 154 с.

## МУЖСКИЕ И ЖЕНСКИЕ ГЕРОИЧЕСКИЕ ОБРАЗЫ В ЭПОСЕ «ДЕДЕ КОРКУД»

**Р.Т.ДЖАВАДОВА**

### РЕЗЮМЕ

Из истории известно, что изучение Огузов как племени, входящем в этнический состав тюркских народов, представляет огромное значение не только для познания художественного вкуса, духовного мира Огузов, но также представляет ценность в качестве источника по многоаспектному изучению азербайджанского народа.

Этот эпос прослеживает историю Огузов, начиная с самого зарождения, подробно останавливается на быте племени, на борьбе народа за независимость, и в целом представляет собой героическое произведение, охватывающее все сферы общественной жизни.

Данная статья посвящена раскрытию мужских и женских героических образов, запечатленных в эпосе.

## HEROICAL IMAGES OF MAN AND WOMAN IN “DEDE QORQUT”

**R.T.JAVADOVA**

### SUMMARY

As it appears from the oguz is a tribe which form an ethnical part of Turkic peoples. “Dede Qorqut” has a huge significance not only for the comprehension of aesthetical taste and moral world of the tribes of oguz but also has a high value as a source for Azerbaijan history’s study.

This epos traces the history of oguz beginning from their origination, stops on their customs and traditions, perpesents their struggle for independence.

The present research is dedicated to the wide description of masculine and ferminine heroical images from “Dede Qorqut”.